# Dünyanın sevinci




**Uşaqlar cəmiyyətin ən gözəl hissəsidir. Hər bir insan, hər ana, hər ata öz xoşbəxtliyini birinci növbədə öz uşağında, öz övladında görür. Ailədə yeni uşağın dünyaya gəlməsi ailə üçün bütün sevinclərdən üstündür...**

**Heydər ƏLİYEV**

Uşaq hüquqları konvensiyasının 20 illiyi ilə əlaqədar olaraq 2009-cu il Azərbaycanda "Uşaq ili" elan olunmuşdur. Bu əlamətdar hadisə ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il 22 dekabr tarixli sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq uşaqlara dövlət qayğısının daha da artırılması, onların problemlərinin vaxtında həlli üçün nəzərdə tutulan tədbirlər mahiyyət və keyfiyyətcə daha müasir tələblərə uyğun həyata keçiriləcəkdir.

Bununla əlaqədar bu günlərdə Beyləqan Rayon Mərkəzi Kitabxanasında "Uşaqlar dünyanın sevincidir" mövzusunda tədbir təşkil olunmuşdur. Tədbiri Beyləqan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Gültəkin Məmmədova açmışdır. O, kitabxananın oxucularla, uşaqlarla işindən və onlara nümunəvi xidmətlərindən söhbət açmışdır. Gültəkin xanım son zamanlar kitabxanada oxucuların, xüsusən də uşaq oxucuların sayının artdığını və uşaqlarda vətənpərvərlik hissinin aşılanmasında kitabxana işçilərinin mühüm rolu olduğunu xüsusi vurğulamışdır. Sonra o tədbir iştirakçılarını uşaqların əl işlərindən ibarət "Bacarıqlı əllər" sərgisinə, "Bütün uşaqlar dost olsa, həyat bayram olar" foto-stendinə, "Nağıllar qonağımızdır" kitab sərgisinə, "Çiçəklərə günəş, uşaqlara sülh" rəsm sərgisinə baxmağa dəvət etdi.

Sonra rayon ziyalıları, yazarlar çıxış edərək dövlətimizin uşaqlara qayğısından, son illərdə bu sahədə görülən işlərdən danışdılar. Uşaqlara qayğı və diqqətdən danışarkən onlar H.Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın körpələrə, kimsəsiz uşaqlara göstərdiyi analıq məhəbbəti onu xalqın gözündə daha da ucaltdığını dönə-dönə qeyd etdilər.

Tədbirdə Qarabağ döyüşləri iştirakçılarından da danışanlar oldu. Onlar ürək ağrısı ilə qeyd etdilər ki, Azərbaycan xalqı zaman-zaman çox bəlalar görüb, çox müsibətlər çəkib. Təəssüflər olsun ki, bu müsibətlər uşaqlarımızdan da yan ötməyib. Bədnam qonşularımızın Xocalıda, Qarabağın digər bölgələrində törətdikləri vəhşiliklər bu gün də qəlbimizdə sağalmaz bir yaraya çevrilib. Qoy xalqımız bir də belə müsibətlər görməsin. Belə şənlikləri Şuşada, Ağdamda, Füzulidə, Laçında, Kəlbəcərdə... keçirək. Körpələrimizin üzündən gülüş əskik olmasın.

Çıxışların sonunda uşaqların hazırladığı "Qarabağ bizi gözləyir" adlı ədəbi-musiqili hissəyə baxıldı. Uşaqlar Azərbaycana, Ulu öndərə, Mehriban xanıma, ana dilimizə, Qarabağa həsr olunmuş şeirlər söylədilər. Körpə fidanlarımızın rəqsləri şənliyi daha da canlandırdı, uşaqlara hədiyyələr verildi. Tədbir uşaqların şən mahnıları və rəqsləri altında yekunlaşdı.

Beyləqan

● **Lalə HACIYEVA,**
*zona müxbirimiz*